UOT 005-027.21
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.318

# KİÇİK BİZNESIN İDARƏEDİLMƏSİNDƏ İNFORMASİYA TƏMİNATININ VƏ DƏSTƏK FORMALARININ İNTEQRASİYASI

**RƏNA QULİYEVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: ranaguliyeva44@gmail.com*
*ORCID: 0009-0006-2210-0581*

## Giriş

Kiçik biznes müasir bazar iqtisadiyyatının ən mühüm sektorudur, onun səmərəliliyi bütövlükdə iqtisadiyyatın vəziyyətini əhəmiyyətli dərəcədə müəyyən edir. Kiçik biznesin əsas iqtisadi funksiyası təkcə istehlak tələbinin sürətli differensasiyasına çevik reaksiya formalaşdırmaq və geniş çeşiddə mal və xidmətlərin yaradılması deyil. Dəyişən bazar şərtlərinə və dəyişən istehlakçı tələbatlarına tez uyğunlaşma qabiliyyəti ilə kiçik biznes iqtisadiyyatı daha rəqabətədavamlı etməklə yanaşı, innovasiya mənbəyi kimi iqtisadi töhfələr verə bilir. Kiçik biznesin sosial funksiyası milli iqtisadiyyatda böyük əhəmiyyət kəsb edir. Yeni iş yerlərini yaratmaqla məşğulluq problemi həll edilir. Dövlət tənzimlənməsinin ən aktual sferalarından biri olan əmək bazarında sosial gərginlik aradan qaldırılır, əhalinin sosial cəhətdən həssas qrupları fəal əmək fəaliyyətinə cəlb olunur, bacarıq və təcrübələrin tətbiqi genişlənir. Lakin kiçik biznesin iqtisadi böhranların öhdəsindən gəlmək üçün daha çox dəstəyə ehtiyacı var. Bu problemə yanaşmada zənnimizcə iki məqamı qeyd etmək olar.

Birincisi, UNCTAD-ın sahibkarlığın inkişafının rəhbəri Arlette Verploeghin sözləri ilə desək, "bugünkü iqtisadi böhranlar dünyasında kiçik müəssisələr biznes planlarını daim uyğunlaşdırmaq üçün yüksək təzyiq altındadırlar, onlara dəstəkləyici tənzimləyici mühit lazımdır" [1]. Bunun üçün qaydalar şəffaf, onlayn olaraq asanlıqla əlçatan olmalıdır. İkincisi, kiçik sahibkarlıq müəssisələri də öz növbəsində innovasiya fəaliyyətinin miqyasını genişləndirmək üçün investisiya yatırımına imkan verən aydın strategiyaya və uzunmüddətli baxışa malik olmalıdır.

Miqyas ölçülərinə baxmayaraq, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan iqtisadiyyatlar üçün kiçik biznes qurumlarının əhəmiyyəti danılmazdır. ÜTT-nın məlumatına görə, kiçik və orta sahibkarlıq inkişaf etmiş iqtisadiyyatlarda məşğulluğun 60-70%-ni və ÜDM-in 55%-ni təşkil edir [2]. İnkişaf etmiş ölkələrdə kiçik biznes müəssisələr hesabına yeni iş yerlərinin əhəmiyyətli hissəsi yaradılır. Statistik məlumatlara əsasən ABŞ və Yaponiyada kiçik biznes ümumi iş yerlərinin 50%-dən 70%-ə qədərini təmin edir. Kiçik firmaların səmərəlilik dərəcəsi onunla nümayiş etdirilir ki, onlar iri müəssisələrə nisbətən xərclərin 1 dollarına 17 dəfə çox innovasiya və təkmilləşdirmələr həyata keçirirlər [3]. Digər bir sıra üstünlüklər də kiçik biznesin həyat qabiliyyətini artırır. Hazırda əksər ölkələrdə kiçik müəssisələrin qeydiyyatının nisbi sadəliyi, təsisçinin təhsil səviyyəsinə, nəzərdə tutulan peşə fəaliyyəti sahəsində səriştələrə məhdudlaşdırıcı tələblərin olmaması onu geniş insanlar üçün əlçatan edir. Lakin bu amillər həm də mütəşəkkil biznesin mövcudluğu üçün yüksək riskləri istisna etmir. Mövcud statistikalar göstərir ki, dünyanın ayrı-ayrı ölkələrində hər il on minlərlə kiçik müəssisə yaradılır və bağlanır.

Kiçik biznesin həyat qabiliyyətinin artırılmasının mütləq amili idarəetmənin səmərəliliyini müasir informasiya texnologiyalarından istifadə etməklə artırmaqdır.

## 1. Kiçik biznesin idarəedilməsi prosesinin informasiya təminatına differensial yanaşma

Kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin kiçik miqyası heç də həyata keçirilən idarəetmə funksiyalarının proporsional azalmasına səbəb olmur. İnkişaf strategiyasının idarə edilməsi, kadrlar, maliyyə, mühasibat uçotu, marketinq, istehsal, satış, təchizat və hesabat sisteminin təşkili hər hansı bir müəssisənin fəaliyyəti üçün həyati vacib funksiyalardır. Kiçik müəssisələrdə idarəetmə vəzifələrinin geniş spektri az sayda işçi tərəfindən həll edilir: direktor, baş mühasib, menecer bütün idarəetmə funksiyalarını yerinə yetirir. Kiçik biznesin bu xüsusiyyəti, bir tərəfdən dünyagörüşünün genişliyi, təhsil səviyyəsi, qərar qəbul etməyə hazır olması baxımından kadrlara xüsusi tələblər qoyur. Digər tərəfdən isə idarəetmə funksiyalarının və informasiyanın avtomatlaşdırılmasına ehtiyac yaradır. Bu ehtiyacların təmin olunması differensial yanaşma tələb edir.

Sənaye, xidmət və ticarət müəssisələrinin idarəetmə funksiyaları, öz fəaliyyətlərinə müxtəlif

resursları cəlb etməsinə görə əhəmiyyətli dərəcədə fərqlənir. Kiçik bir istehsal müəssisəsini təşkil etmək üçün istehsal obyektlərinə və enerji potensialına əhəmiyyətli investisiyalar tələb olunur. Kiçik binesin sahə mənsubiyyəti üzrə informasiya təminatı fərqləri Cədvəl 1-də nəzərdən keçirilir.

**Cədvəl 1. Kiçik biznesin sahə mənsubiyyəti əsasında informasiya təminatının spesifikası**

| Kişik binesin sahə mənsubiyyəti əlamətləri | İnformasiya təminatına ehtiyacın spesifikası |
|---|---|
| Sənaye istehsalı fəaliyyəti informasiya ilə zəngindir. | İdarəetmə sistemində çoxsaylı fərqlərə malik uçot, tənzimləyici və texnoloji məlumatlar dövr edir. |
| Tikinti sənayesindəki kiçik müəssisələr müasir tikinti texnologiyalarına, əl əməyini azaldan yüksək məhsuldar mexanizmlərdən istifadəyə yönəldilmişdir. | Tikinti sənayesində idarəetmə proseslərinin avtomatlaşdırılmasının aktual sahələri: avtomatlaşdırılmış layihələndirmə, planlaşdırma, təchizatçılar və müştərilərlə əlaqələrin idarə edilməsi, mühasibat uçotu fəaliyyəti və sənədləşdirmə dəstəyidir. |
| Pərakəndə ticarət müəssisələri üçün əsas tələb daha geniş çeşiddə məhsullar hesabına yüksək satış səmərəliliyinin və rəqabət qabiliyyətinin təmin edilməsidir. | Mal ehtiyatlarının vaxtında tamamlanması, satınalma şəraitinin yaxşılaşdırılması hesabına maya dəyərinin aşağı salınması, daşınma və satınalma xərclərinin, anbar sahəsinin və anbarlardakı inventarların azaldılması mühüm rol oynayır. |
| Digər xidmət müəssisələri | Kadrlar, informasiya texnologiyaları bu kateqoriya təsərrüfat subyektləri üçün əsas strateji resursdur. |

*Müəllifin yanaşması əsasında tərtib edilmişdir.*

Kiçik biznesin sahə mənsubiyyəti əlamətlərinə müqayisəli nəzər saldıqda, ən çox sayda kiçik biznes pərakəndə satış və xidmət sektorlarında cəmləşməsi səbəbləri aydınlaşır. Bu sferada müəssisənin açılması və fəaliyyət göstərməsi üçün tələb olunan ilkin kapital nisbətən azdır, kapitalın dövriyyə sürəti yüksəkdir. Digər sahələrin müqayisəsinə keçdikcə informasiya təminatına ehtiyacın miqyası və xarakteri dəyişir. Göründüyü kimi, informasiya təminatı təkcə istehsal və xidmət proseslərinin birbaşa idarə edilməsi üçün vacib resurs deyil, həm də avadanlıqdan istifadənin səmərəliliyinin təhlili, əsas fəaliyyət göstəricilərinin hesablanması və istehsalda yaranan çətinliklərin müəyyən edilməsi üçün zəruri əsasdır.

**2. Resurs məhdudiyyətləri və informasiya texnologiyalarını cəlb etmə imkanları**

Kiçik biznesin nizamnamə kapitalı adətən kiçik olur və şəxsi vəsaitlər, qrantlar və dövlət subsidiyaları əsasında formalaşır. Əsas vəsaitlər və kreditlər müəssisənin vəsaitlərinin ümumi həcminin əhəmiyyətli hissəsini təşkil edir. Azərbaycan Respublikası qanunvericiliyinə görə, mikro müəssisələr illik gəlirləri 200 min manatdan (müqayisə üçün Aİ ölkələrində 2 mln avro, Rusiyada 60 milyon rubldan) çox olmayan şirkətlərdir. Təkcə bu kiçik biznes qurumlarının məhdud maliyyə imkanlarından xəbər verir (Cədvəl 2).

**Cədvəl 2. Azərbaycanda və Avropa İttifaqı ölkələrində sahibkarlıq subyektlərinin bölgü meyarları [4],[5]**

| Azərbaycan | | |
|---|---|---|
| **Sahibkarlıq subyektlərinin kateqoriyaları** | **İşçilərinin orta siyahı sayı (nəfər)** | **İllik gəliri (ig) (min manat)** |
| Mikro sahibkar | 1 - 10 | ig ≤ 200 |
| Kiçik sahibkar | 11 - 50 | 200 < ig ≤ 3 000 |
| Orta sahibkar | 51 - 250 | 3 000 < ig ≤ 30 000 |
| İri sahibkar | 251 və ondan yuxarı | 30 000 < ig |
| **Avropa İttifaqı ölkələri (ümumi illik balans mln avro)** | | |
| Orta müəssisə | < 250 | ≤ 50 (60) |
| Kiçik müəssisə | < 50 | ≤ 10 (12,5) |
| Mikro müəssisə | < 10 | ≤ 2 (2,5) |

*Cədvəl müəllif tərəfindən sistemləşdirilmişdir.*

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 99,6 faizini kiçik və orta biznes subyektləri təşkil edir [6]. Həmin qurumların innovativ inkişafının dəstəklənməsi strateji fəaliyyətin əsas elementlərindən biridir. Mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinin şaxələndirilməsi və innovasiyalar ölkənin əsas inkişaf göstəricilərindən biridir. Ayrı-ayrı inkişaf etməkdə olan ölkələrdə kifayət qədər maliyyə resursları olmadığından kiçik müəssisələr xarici maliyyələşməni əldə etməkdə çətinliklərlə üzləşirlər. Bir sıra ekspertlərin fikrincə, Rusiya kiçik müəssisələrinin kredit resurslarını cəlb etmək ehtiyacları yalnız 15-20% ödənilir [7]. Burada həmçinin qeyd olunur ki, banklar kredit vermə riskinin yüksək olması və likvid girovun olmaması, maliyyə resurslarının təqdim edilməsindən imtina etməsi və yüksək faiz dərəcələri təyin etməsi səbəbindən bu kateqoriyadan olan müştərilərlə işləməkdən çəkinirlər. Kreditlərin əksəriyyəti kiçik və orta sahibkarlara bir ilə qədər müddətə verilir.

Maliyyə resursları ilə bağlı çətinliklər kiçik müəssisələrin informasiya infrastrukturunun inkişafında və istifadəsində əsas maneələrdən biridir. Dəstək infrastrukturları da kiçik biznesə birbaşa təsir göstərir.

Deyə bilərik ki, biznesin təşkili, biznes sahibi üçün müxtəlif dəstək növlərinin mövcudluğu və əlçatanlığından birbaşa təsirlənir. Kiçik biznes layihəsi çərçivəsində maliyyə yardımı və ya investisiya tətbiqi üçün müəyyən edilmiş əsaslandırmalar tələb olunur. Məlumat və şəbəkələrə əlçatanlıq xidmət və məhsulların artımını üzvi şəkildə təmin etməyə imkan verər. Bununla belə, üç əsas dəstək infrastrukturu: maliyyə, informasiya və şəbəkə biznesinə çıxışın genişləndirilməsi biznes qərarının verilməsi üçün əhəmiyyətli dərəcədə zəruridir (Şəkil 1).




**Şəkil 1. Kiçik biznes layihəsində informasiya təminatı strategiyası və dəstək formalarının inteqrasiyası: konseptual baxış (müəllif tərtibatında)**

2024-cü ildə satış imkanlarını artırmaq və yeni bazarlara çıxışa dəstək məqsədilə İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) bu istiqamətdə təklif etdiyi xidmətlərdən 60-a yaxın mikro, kiçik və orta biznes (KOB) subyekti faydalanıb [8]. KOB mərkəzlərdən istifadə edən sahibkarlar "Android" ("GooglePlay") və ya "İOS" ("AppStore") əməliyyat sistemləri ilə çalışan mobil qurğuya "KOB növbə" tətbiqini yükləməklə şəxsiyyət vəsiqəsinin seriya nömrəsini və FİN kodunu daxil etməklə qeydiyyatdan keçə və şəxsi kabinetini yarada bilər.

Kiçik biznesə dəstəyin yeni rəqəmsal platformalarının yaradılması, eləcə də informasiya təminatı strategiyası və dəstək formalarının inteqrasiyası sahəsində Avropa İttifaqı ölkələrinin qabaqcıl təcrübələrindən istifadə edilməsi məqsədəuyğundur. Avropa İttifaqı ölkələrində kiçik bizneslərin sayında davamlı artım var və biznesin inkişafı sahəsində geniş sənaye sahələri ilə işləyən İsveç Elm Parkları misalında hər il şirkətlərin sayı artır. Uminova Elm Parkı beş il ərzində 900-dən çox biznes ideyası üzrə məsləhətlər vermiş və 160 kiçik şirkətin yaradılmasına kömək etmişdir [9]. Hətta ən inkişaf etmiş ölkələrdə vençur kapitalı zəruri olsa da, uyğun məlumat və şəbəkələrdən gələn tərəfdaşlıq dəstəyi olmadan kiçik biznes xarici bazarda tam uğur qazana bilməz. Digər problemlər ayrı-ayrı ölkələrdə kiçik sahibkarlıq sektorunun böyük bir firmaya nisbətən daha az cəlbediciliyi, stabil məşğulluğa inamın olmaması, aşağı əməkhaqqı səviyyəsi ilə bağlıdır. Bu da öz növbəsində daimi əsasda yüksəkixtisaslı kadrların cəlb edilməsi imkanlarını azaldır. Bunun nəticəsidir ki, ixtisaslı işçilərin cəlb edilməsi üçün imkanları xeyli çətinləşir. Bu problemin nəticələrindən təsirlənən aşağıdakı digər məsələləri də göstərmək olar:

- xüsusilə kiçik biznesin dar bazar ixtisaslaşması və marketinq strategiyalarının hazırlanmasındakı çətinliklər;
- kiçik müəssisə bir ərazidə iqtisadi fəaliyyətin ümumi həcmində olduqca kiçik bazar payını tutur. Bu səbəbdən o, bazar konyunkturasına təsir edə bilmir;
- müştərilərini daha yaxşı tanımağa və dəyişən bazar şərtlərinə daha operativ uyğunlaşmağa və uzunmüddətli əlaqələr qurmağa çalışır;
- bahalı marketinq araşdırmaları və bazar vəziyyətinin dərin təhlilinin olmaması bunu etməyə imkan vermir;
-biznes genişləndikcə informasiya təminatının həcmi əhəmiyyətli dərəcədə artır, idarəetmə qərarlarının işlənib hazırlanması və qəbul edilməsinin mürəkkəbliyi artır, analitik və marketinq tədqiqatları təcili ehtiyaca çevrilir.

Kiçik biznesi idarə etməyin yüksək riskləri informasiya təminatı imkanlarının genişləndirilməsini tələb edir. Bizneslə məşğul olmaq riskləri informasiya təminatı olmadıqda yüksək qiymətləndirilir və bütövlükdə iqtisadi mühit böyük qeyri-müəyyənlik, qanunvericilikdə tez-tez dəyişikliklər və bürokratik maneələrlə ilə də xarakterizə olunur. Tez-tez dəyişən "oyun qaydaları" kontekstində riskləri azaltmaq üçün kiçik bizneslər bir neçə fəaliyyət növünü birləşdirməyə çalışırlar. Beləliklə, xidmət şirkətləri çox vaxt bu fəaliyyəti əlaqəli malların pərakəndə satışı ilə birləşdirirlər. Bu şəraitdə kiçik biznesin yaşaması üçün əsas amil çeviklik, xarici mühitdəki dəyişikliklərə, bazar konyunkturasına çevik reaksiya vermək, minimal xərclərlə yenidən tez təşkil olunma qabiliyyətidir.

Dövlət dəstəkləmə siyasətinin əsas aləti xüsusi vergi rejimləri və layihə əməkdaşlığıdır. Kiçik müəssisələr, qanunvericiliyinə uyğun olaraq, sadələşdi-

rilmiş hesabat sistemi ilə xüsusi vergi rejimlərindən istifadə edə bilərlər. Tənzimləyici orqanların, vergi orqanlarının və sosial fondların fəaliyyətinin optimal əlaqələndirilməsi kiçik müəssisələrin inkişafında əhəmiyyət daşıyır. Xüsusilə biznes fəaliyyətində vergidən yayınma və kölgə iqtisadiyyatı hallarının aradan qaldırılması informasiya sistemlərinin tətbiqinə və təkmilləşdirilməsinə zərurəti artırır.

Bununla belə, maraqlı bir mülahizə kiçik biznesin fəaliyyətinə layihə yanaşması ilə bağlı olardı. Böyük bir şirkətin fəaliyyəti daha geniş miqyasda həyata keçirilir və daha geniş coğrafi bazarda cəmlənir və buna görə daim mövcud resursları ən səmərəli şəkildə paylamaq və idarə etmək kimi strategiyalara əsaslanırlar. Kiçik biznes üçün onların əsas fəaliyyətlərinin layihələr əsasında aydın şəkildə müəyyən edilməsi lazımdır. Digər tərəfdən, kiçik şirkətlər daha məhdud resurslara sahibdirlər və kiçik şirkətin həyat silsiləsinin müəyyən mərhələlərində daha az maraq kəsb edir. Bununla belə, hər hansı bir şirkətin mövcud bazarda qala bilməsi üçün müəyyən bir zaman çərçivəsində imkanlar əldə edilməlidir. Eləcə də onların təklif etdiyi məhsul və xidmətlərin yeni müştərilər üçün cəlbediciliyi üçün unikal xarakterə malik olması lazımdır. Bu məqsədləri reallaşdırmaq üçün kiçik şirkətlər iri müəssisələr və dövlət xidmətləri ilə birgə layihələrdə işləməlidir. Kiçik biznes bazar təminatı əldə etməklə gəlir əldə etmə yollarını daha da asanlaşdıra bilər.

### 3. Kiçik biznes və informasiya texnologiyalarının tətbiqi: problemlər və yanaşmalar

Biznes fəaliyyəti mühit dəyişikliklərinin güclü təsirinə məruz qalır. Texnoloji dəyişikliklər xarici mühit dəyişikliklərinin əsas sahəsi kimi idarəetmə proseslərinin daim təkmilləşdirilməsi zərurətini qarşıya qoyur. İT və əməliyyat liderləri üçün ən böyük problem texnologiya və əlaqəli həllərin heç vaxt yerində dayanmamasıdır: beş il əvvəlin ən qabaqcıl texnologiyası artıq tələblərə cavab verməyə bilər [10]. Hər bir menecerin və fərdin tələb olunan sürətlə böyük həcmdə məlumat toplamaq, saxlamaq, ötürmək və emal etmək qabiliyyəti məhduddur. Müəssisə meneceri artıqlıq, natamamlıq və alınan məlumatların ziddiyyətli olması şəraitində qərarlar qəbul etməlidir. Bu şəraitdə informasiyanın emalının səmərəliliyini və keyfiyyətini (dəqiqlik, tamlıq və aktuallıq) artırmaq üçün müxtəlif üsul və vasitələrdən istifadə etməyə, yəni kompüter məlumatlarının emalına əsaslanan müasir informasiya texnologiyalarından istifadə etməyə çalışmaq təbiidir.

İdarəetmə funksiyasının avtomatlaşdırılması müasir biznes fəaliyyətində aparıcı trend hesab olunur. Lakin biznes analitiklərinin qənaətinə görə, həyata keçirilən idarəetmə funksiyalarının həcmi müəssisənin fəaliyyətinin miqyası ilə heç də həmişə mütənasib deyil. Kiçik müəssisələr də böyük müəssisələrdə olduğu kimi bütün növ idarəetmə işlərini yerinə yetirirlər. Lakin bu funksiyaların həyata keçirilməsinin dərinliyi və emal olunan məlumatların həcmi haqqında birmənalı danışmaq olmaz. Böyük müəssisələrə yönəldilmiş proqram məhsulları iqtisadi cəhətdən və funksionallıq səbəbindən (mühasibat funksiyalarının dərin həyata keçirilməsi) kiçik biznes üçün uyğun deyildir. Nümunə kimi əmək haqqının böyük və kiçik müəssisədəki uçotuna baxmaq olar. Böyük müəssisələrdə əmək intensivliyi və hesablama alqoritmlərinin mürəkkəbliyi birbaşa işçilərin sayından və istifadə olunan əməkhaqqı növlərinin, əlavə ödənişlərin hesablamaların və əlavə haqların müxtəlifliyindən asılıdır. Kiçik müəssisələr əməkhaqqının hesablanmasının ən sadə üsullarından istifadə edirlər, burada çox vaxt məbləğ sabitdir və hissə-hissə ödənişlər edilir. Əlbəttə, kiçik biznesdə əməkhaqqının hesablanması funksiyasının avtomatlaşdırılması zərurəti aradan qalxmır, lakin bu funksiyanın həyata keçirilməsinin dərinliyinə dair tələblər xeyli dərəcədə aşağıdır.

Yuxarıda qeyd edildiyi kimi, kiçik biznes xüsusi həllər tələb edir, kiçik biznes müəssisəsində informasiya təminatı proseslərin miqyasına və funksionallığa adekvat olmalıdır. Onların hər birinin avtomatlaşdırılması üçün fərdi proqram məhsulundan istifadə edilərsə, məlumat ehtiyatı və proqramların aşağı inteqrasiyası problemi kəskinləşəcək. Funksiyaların həyata keçirilməsinin dərinliyi və idarəetmə işçilərinin sayının azlığı onu göstərir ki, "bir proqram çərçivəsində" prinsipi əsasında qurulmuş inteqrasiya olunmuş həllər kiçik biznesdə daha çox istifadə olunur. Biz bunu xüsusilə bir proqram çərçivəsində mühasibat uçotu və idarəetmə uçotu funksiyalarını həyata keçirən informasiya sistemləri seqmentində görürük. Son illərdə planlaşdırma funksiyalarını və müəssisənin vəziyyətinin maliyyə-iqtisadi təhlilini daxil etməklə funksionallığın genişləndirilməsi tendensiyası müşahidə olunur. Aydındır ki, məhdud maliyyə resursları səbəbindən kiçik biznes inkişaf etmiş İT infrastrukturunun yaradılmasına əhəmiy-

yətli investisiyalar yatıra bilmir. Texniki və proqram vasitələrinin yüksək qiyməti şəraitində onlar, bir qayda olaraq, sadə standart texniki həllərdən, pulsuz və ya MS Office (Word, Excel) kimi ucuz kütləvi proqram məhsullarından istifadə ilə kifayətlənmək məcburiyyətində qalırlar.

Fəaliyyəti tez dəyişdirmək meyli, tezliklə müəssisə üçün aktuallığını itirə biləcək texniki avadanlıq və xüsusi proqram təminatının əldə edilməsinə resursların investisiya edilməsinin yüksək risklərinə səbəb olur. Bu şəraitdə sahibkar məntiqi olaraq ümumi təyinatlı informasiya sistemlərindən və onların alətlərindən, elektron poçt və internet rabitəsindən istifadəyə, minimal xərclərlə ən həlledici biznes proseslərinin avtomatlaşdırılmasına üstünlük verir. Biznes proseslərinin reinjiniringi (BPR) təşkilatlara müştəri xidmətlərini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq, əməliyyat xərclərini azaltmaq və özəl sektora daha rəqabətli olmaq üçün işlərini əsaslı şəkildə yenidən düşünməyə kömək metodu kimi tətbiq olunmağa başladı [11].

Data analitika kiçik biznesə onlayn marketinq nailiyyətlərini izləmək və daha çox istehlakçıya yönəlmiş strategiyalar vermək üçün daha sərfəli və effektiv alətlər və məlumatlar verir. Biznes analitika ilə böyük məlumat analitikası təşkilatların performansını, istehlakçı təcrübələrini və abunəçilərin sayını yaxşılaşdıra bilər [12].

İT infrastrukturunun yaradılması xərclərinin minimuma endirilməsi probleminin həllində sürətlə inkişaf edən sahələrdən biri bulud xidmətlərindən istifadədir. Əslində, bu, uzaqdan və paylanmış məlumatların emalı və saxlanmasının yeni paradiqmasıdır ki, İnternet xidməti kimi istifadəçiyə uzaq server resursları və imkanları təqdim edir. Bulud xidmətləri informasiya texnologiyaları, texniki dəstək və informasiya sistemlərinin saxlanması üçün xərclərin azaldılmasını, tələb olunan resurslara mümkün qədər tez çıxışı və ehtiyac aradan qalxdıqda onlardan imtina etməyi, sorğulara uyğun miqyaslılığı və xərclərin şəffaflığını təmin edir. Bulud xidmətlərindən istifadəni məhdudlaşdıran əsas amillər informasiya təhlükəsizliyi, məlumatların məxfiliyi və İnternetə çıxış imkanları ilə bağlı risklərdir.

Əmək ehtiyatlarını kiçik müəssisənin fəaliyyətində məhdudlaşdırıcı amil kimi nəzərə alsaq, bunun əsasən İT mütəxəssislərinə aid olduğunu söyləmək lazımdır. İri müəssisələrin təşkilati strukturunda İT şöbələri var. Son onillikdə davam edən meyillərə və mənbələrə nəzər salsaq, qeyd edə bilərik ki, "kiçik və orta müəssisələrdə az sayda İT işçiləri var, qalanlarına isə frilanserlər, İT xidmət təminatçıları, bu funksiyanı əsas vəzifələri ilə birləşdirən öz işçiləri və ya ümumiyyətlə İT dəstəyi olmayan işçilər xidmət göstərir" [13]. Kiçik biznesin informasiya texnologiyalarına həssaslığı məsələsi İT mütəxəssislərinin biznes fəaliyyətinin idarə olunması proseslərində iştirakını və rolunu günü-gündən artırır. Bu baxımdan onları şəxsi keyfiyyətlərini nəzərdən keçirən tədqiqatların nəticələri də maraqlıdır. Rahab Jogiyanto Hartono liderin şəxsi keyfiyyətlərini nəzərdən keçirərkən onları iki qrupa ayırır: adapterlər və yenilikçilər [14]. Adapterlər, artıq sınaqdan keçirilmiş və effektivliyi sübut edilmiş həllər üzərində fokuslanır, yenilikçilər isə yeniliyə və riskə daha çox meyllidirlər. İnnovativ lider şirkətlər İT-ni daha geniş tətbiq edirlər.

Müəssisənin fəaliyyətinin kiçik miqyası və satış bazarının darlığı menecerə bütün məsələlərdən xəbərdar olmağa imkan verir. Menecerin istehsal prosesində bilavasitə iştirakı ona operativ məlumat almaq və baş verən hadisələrə operativ reaksiya vermək imkanı da yaradır. Lakin menecerlərin informasiya texnologiyaları üzrə bilik və bacarıq səviyyəsini və dərinliyini təhlil edən müəlliflər bildirirlər ki, onların İT sahəsində hazırlıq səviyyəsi yetərli deyil. Menecerlərin İT sahəsində ixtisaslaşmış bilik və bacarıqlarının olmaması, İT-nin öz biznesi üçün əhəmiyyətini başa düşməsi aşağıdakı əsas fərqləri, problemləri və eyni zamanda, yanaşma fərziyyələrini aktuallaşdırır. Bu yanaşmalar aşağıdakı təsəvvürləri yaradır:

a) kiçik biznesdə bir çox rəhbər şəxslər İT-nin onların biznesi üçün faydalı ola bilməsi və yeni texnologiyaların potensialı haqqında geniş təsəvvürü yoxdur;

b) menecerləri informasiya texnologiyalarından daha çox məlumatlı olan müəssisələrdə onların tətbiqinə və istifadəsinə daha həssas yanaşması;

c) müəssisənin ölçüsü nə qədər kiçik olarsa, İT-dən istifadə üçün bir o qədər çox maneələr yaranır və İT daha az qəbul olunur;

d) müəssisə işçilərinin informasiya texnologiyaları sahəsində bilikləri təhsil səviyyəsi ilə bağlıdır. İşçiləri İT imkanlarından daha çox məlumatlı olan şirkətlər kompüter texnologiyalarını yeniləşdirməyə və tətbiq etməyə daha çox meyllidirlər;

e) biznesin informasiya ilə doyma dərəcəsi amili

– biznes nə qədər çox məlumatdan asılıdırsa və ya təmin olunmuşdursa, İT-dən istifadəni bir o qədər aktiv qəbul edir;

f) müəssisənin İT-yə rəğbəti böyük ölçüdə menecerin İT-dən istifadə imkanları və perspektivləri haqqında məlumatlılığından və müəssisənin ölçüsündən asılıdır. Müəssisə nə qədər böyükdürsə, o, yeni İT-ni bir o qədər fəal qəbul edir;

g) ətraf mühitdəki rəqabət səviyyəsi də İT-dən istifadə dərəcəsinə təsir göstərə bilər. Daha rəqabətli mühit İT tətbiqi ilə bağlı qərarların qəbul edilməsini şərtləndirir.

Qeyd olunan yanaşmaları və nəticələri təsdiq edən çoxsaylı biznes araşdırması sorğuları aparılmaqdadır. Bu məqalədə sorğuların metodikası və miqyasını əhatə etmək imkanlarımız məhduddur. Fərziyyələrin və nəticələrin etibarlılığının yüksək ehtimalla təsdiqi üçün, ABŞ-da maraqlı sorğu araşdırılması praktikasına qısa nəzər yetirməyi məqsədəuyğun hesab edirik. 2018-ci ildə ABŞ Ticarət Palatası tərəfindən aparılan iki biznes sorğusunun nəticələrinə baxa bilərik. ABŞ-da bütövlükdə rəqəmsal platformaların istifadəsini araşdıran milli sorğunun nəticələri göstərir ki, kiçik müəssisələr tərəfindən rəqəmsal platformalardan istifadə hər yerdə mövcuddur [15]:

● Kiçik müəssisələrin 84%-i müştərilərə məlumat vermək üçün ən azı bir əsas rəqəmsal platformadan istifadə edir;

● 80%-i məhsul və xidmətləri göstərmək, həmçinin reklam etmək üçün ən azı bir əsas platformadan istifadə edir;

● 79%-i müştərilər və təchizatçılarla ünsiyyət qurmaq üçün rəqəmsal vasitələrdən istifadə edir;

● 75%-i satış üçün texnoloji platformalardan istifadə edir.

Sorğuda iştirak edən kiçik müəssisələrin 57%-i mövcud rəqəmsal alətlərlə tanışlığın olmamasının problem olduğunu bildirib. Bu nəticə göstərir ki, biznes İnternetə çıxış əldə etsə belə, hansı alətlərdən istifadə edəcəyini bilməsi çətin ola bilər. Sahibkarlar öz bizneslərini uğurla başlada bilsələr də, əməliyyatları genişləndirmək üçün işçi tapmaqda çətinlik çəkirlər. Demək olar ki, sadalanan amillərdən kiçik biznes sektorunda səmərəli istifadə üçün ən vacib olanı maddi, maliyyə və insan resurslarıdır. Analoji nəticələri Çin şirkətlərinin biznes və rəqabət strategiyalarında da görmək mümkündür [16].

Kiçik və orta biznesə informasiya dəstəyi biznesə dəstək siyasətinin ən vacib sahəsinə çevrilir. Müəssisədə informasiya infrastrukturunun inkişafına kifayət qədər diqqət yetirilməməsi bir müddətdən sonra müəssisənin fəaliyyətinin tamamilə dayandırılmasına səbəb ola bilər. Yuxarıda aparılan sistemləşdirmənin nəticələri göstərdi ki, kiçik firmaların rəhbərləri isə heç də həmişə informasiya texnologiyalarından istifadə zərurətini görmürlər, bəzən bunu əsassız əlavə xərc hesab edirlər. Baxmayaraq ki, avtomatlaşdırma hər bir müəssisə üçün İT proseslərinin tətbiqinin fərdi olduğunu və şirkətin bütün mövcud resurslarını rasionallaşdırmağa yönəldilməsini nəzərdə tutur. Rəqəmsallaşma biznes arxitekturasını dəyişdirən əsas trendi təşkil edir. KOB biznes proseslərinin rəqəmsallaşdırılması inkişafın əsas vektorlarından biridir. İndi İT bazarı fəal şəkildə böyüyür və xidmət keyfiyyətinin yaxşılaşdırılması, yeni müştərilərin cəlb edilməsi, bazarların inkişafı, analitika, istehlakçı davranışının və tələbinin qiymətləndirilməsi, monitorinq, elektron satınalmaların avtomatlaşdırılması və satışın rəqəmsallaşdırılması üçün müxtəlif texnoloji həllər təklif edir.

## Nəticə

Müasir beynəlxalq praktikada, o cümlədən Azərbaycanda kiçik və orta sahibkarlar xammalın, komponentlərin və xidmətlərin qiymətlərinin artması ilə üzləşirlər ki, bu da məhsulun, istehlakçının son dəyərinə və nəticədə təşkilatın inkişafına təsir göstərir. Ancaq rəqəmsallaşma və İT məhsullarının köməyi ilə bir çox problemləri həll etmək olar. Ticarət platformalarının, effektiv idarəetmə sisteminin yaradılması, onlayn iştirakın inkişafı və biznes proseslərinin avtomatlaşdırılması kiçik müəssisələrə məhdudiyyətləri aradan qaldırmağa və bazarları genişləndirməyə imkan verə bilir. Azərbaycanda sahibkarlığa dəstək kursunu və müasir proqram təminatı təklif etməyə hazır etibarlı təchizatçıların fəaliyyətinin inteqrasiyası və tənzimlənməsi biznes qərarlarına kömək edə bilər.

Bu tədqiqatda müxtəlif kiçik biznes proseslərinin informasiya təminatı və dəstəyinini əhatə edə bilən inteqrasiya çərçivəsi təqdim edildi. Burada təklif olunan inteqrasiya proseslərinin qurulması informasiya texnologiyalarından istifadə üçün praktiki yanaşmanı təmin edir. Həlledici uğur amillərinin monitorinqi də öz növbəsində bu tədbirlərin uğurunu qiymətləndirməyə kömək edə bilər. Buna görə də, zənnimizcə, kiçik bizneslər üçün İT strategiyasında əvvəlcə

avtomatlaşdırılmalı olan həlledici fəaliyyətlərə üstünlük verməli, sonra isə həmin biznes proseslərinin yenidən qurulmasının optimal yolları tapmalıdır. Bu sahədə gələcək işlər sahibkarlara və tədqiqatçılara ilk növbədə avtomatlaşdırılmalı olan potensial prioritet sahələri qeyd etməyə və həmçinin rəqəmsal transformasiyaya nail olmağa imkan verər. Bu cür yanaşma biznes prosesin yenidən qurulması haqqında daha yaxşı məlumat verməyə kömək edəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. How to make small businesses in developing countries more competitive, 27 June 2023, https://unctad.org/news/how-make-small-businesses-developing-countries-more-competitive*

*2. Christopher Arnold, Small- and Medium-sized Practices (SMPs), The Foundation for Economies Worldwide Is Small Business, | June 26, 2019, https://www.ifac.org/knowledge-gateway/discussion/foundation-economies-worldwide-small-business-0*

*3. Провалов В. С. Информационные технологии управления малым бизнесом, Программные системы и вычислительные методы – №3(8) 2014, doi: 10.7256/2305-6061.2014.3.13406, https://nbpublish.com/library_get_pdf.php?id=31230*

*4. "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI, Bakı şəhəri, 21 dekabr 2018-ci il, https://www.taxes.gov.az/az/page/mikro-kicik-orta-ve-iri-sahibkarliq-subyektlerinin-bolgusu-meyarlarinin-tesdiq-edilmesi*

*5. APEC BEST Awards: SMEs Internationalization Models and Practices, http://apec.org/Publications/2017/02/APEC-BESTAwards-SMEs-Internationalization-Models-and-Practices*

*6. Azərbaycanda sahibkarlıq, https://www.stat.gov.az/source/entrepreneurship/*

*7. Ильин И.Е. Малый бизнес в России: проблемы и перспективы [Текст] / И.Е. Ильин // Банковское кредитование. – 2008. – N 2*

*8. Kiçik və orta biznesə dövlət dəstəyi, Xalq qəzeti, 29.08.2024, https://xalqqazeti.az/az/iqtisadiyyat/191089-kicik-ve-orta-biznese-dovlet-desteyi*

*9. Uminova Innovation, available at http://uminovainnovation.se*

*10. Трансформация бизнеса, https://www2.deloitte.com/kz/ru/pages/strategy-operations/solutions/core-business-operations.html*

*11. Hari Lal Bhaskar, Business process reengineering framework and methodology: A critical study, January 2018 International Journal of Services and Operations Management 29(4):527, DOI:10.1504/IJSOM.2018.090456,*

*12. Oluwaseun Oladeji Olaniyi, Anthony Idoko Abalaka and Samuel Oladiipo Olabanji, Utilizing Big Data Analytics and Business Intelligence for Improved Decision-Making at Leading Fortune Company,Journal of Scientific Research and Reports, Volume 29, Issue 9, Page 64-72, 2023; Article no.JSRR.105812*

*13. Исследования Аналитического центра REAL-IT «ИТ-кадры 2010» [Электронный ресурс] // URL: http://www.nisse.ru/business/ article/ article_1873.html.*

*14. Adoption of Information Technology on Small Businesses: The Role of Environment, Organizational and Leader Determinant/ Rahab, Jogiyanto Hartono // International Journal of Business, Humanities and Technology Vol. 2 № 4; June 2012 – P. 60–66*

*15. Mysore Ramaswamy, Baton Rouge, Information Technology Strategies For Small Businesses , Issues in Information Systems Volume 20, Issue 2, pp. 216-225, 2019, https://iacis.org/iis/2019/2_iis_2019_216-225.pdf*

*16. Aliyev,M., Guliyev,M., Abdullaev,U., Huseynova,L., &Azizova,G.(2024). Strategies for improving the competitiveness of agricultural products and China's trade policy in the world market. Scientific Horizons, 27(11), 129-140. doi: 10.48077/scihor11.2024.129, https://sciencehorizon.com.ua/en/journals/tom-27-11-2024/strategiyi-pidvishchennya-konkurentospromozhnosti-agrarnoyi-produktsiyi-ta-torgovelna-politika-kitayu-na-svitovomu-rinku*


## XÜLASƏ


Məqalə kiçik biznesə informasiya dəstəyinin elmi və praktik məsələlərinə həsr olunur. Bu tədqiqatın məqsədi bazar iqtisadiyyatı subyektləri kimi kiçik biznes kateqoriyasının fəaliyyətində informasiya texnologiyalarından istifadə mühitini, informasiya təminatını və xüsusiyyətlərini araşdırmaqdır. Məqalədə kiçik biznesin informasiya təminatına dair məlumatların sistemləşdirilməsinin ümumi elmi metodlarından istifadə olunur. İnformasiya mühitinin tələb etdiyi tədbirlərin daha dəqiq müəyyən edilməsi üçün məqalədə biznes seqment-

lərinə differensial yanaşmaqla əsas bazar amilləri öyrənilmişdir. Tədqiqatın əsas töhfəsini müxtəlif dəstək növünün hər bir konkret kiçik biznes fəaliyyətində necə inteqrasiya olunması, onların idarəedilməsi və layihənin uğuruna necə təsir göstərməsi barədə sistemli baxışın formalaşdırılması təşkil edir. Məqalədə kiçik biznes proseslərinin təşkili və məlumat analitikası kimi sahələrdə rəqəmsal texnologiyaların tətbiqindəki çatışmazlıqlara nəzər salınır və qabaqcıl təcrübələr təhlil olunur. Təqdim olunan məqalə müvafiq İT strategiyasının seçilməsinə kömək edən konseptual çərçivə təklif edir.

**Açar sözlər:** *KOBİA, IT Strategiya, Business Data Analitika, kiçik biznesin informasiya təminatı, rəqəmsal transformasiya.*

**Rana Guliyeva**
***Master, Azerbaijan State University of Economics***
***e-mail: ranaguliyeva44@gmail.com***
***ORCID: 0009-0006-2210-0581***

## INTEGRATION OF INFORMATION PROVISION AND SUPPORT FORMS IN SMALL BUSINESS MANAGEMENT

### Abstract

The article is devoted to the scientific and practical issues of information support for small businesses. The purpose of this study is to investigate the environment, information provision and characteristics of the use of information technologies in the activities of the small business category as market economy entities. The article uses general scientific methods for systematizing data on the information provision of small businesses. In order to more accurately determine the measures required by the information environment, the article studies key market factors by taking a differential approach to business segments. The main contribution of the study is to develop a systematic view of how different types of support are integrated into each specific small business activity, how they are managed, and how they affect the success of the project. The article examines the shortcomings in the application of digital technologies in areas such as small business process organization and data analytics and analyzes best practices. The presented article offers a conceptual framework that helps in selecting an appropriate IT strategy.

**Keywords:** *KOBİA, IT Strategy, Business Data Analytics, small business information provision, digital transformation.*

**Рена Гулиева**
***Магистр, Азербайджанский Государственный Экономический Университет***
***e-mail: ranaguliyeva44@gmail.com***
***ORCID: 0009-0006-2210-0581***

## ИНТЕГРАЦИЯ ФОРМ ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ И ПОДДЕРЖКИ В УПРАВЛЕНИИ МАЛЫМ БИЗНЕСОМ

### Резюме

Статья посвящена научным и практическим вопросам информационного обеспечения малого бизнеса. Целью данного исследования является изучение среды, информационного обеспечения и особенностей использования информационных технологий в деятельности субъектов малого бизнеса как субъектов рыночной экономики. В статье использованы общенаучные методы систематизации данных по информационному обеспечению субъектов малого предпринимательства. Для более точного определения мер, которые требует информационная среда, в статье изучаются ключевые факторы рынка с использованием дифференцированного подхода к сегментам бизнеса. Основной вклад исследования заключается в разработке системного представления о том, как различные типы поддержки интегрируются в каждую конкретную деятельность малого бизнеса, как они управляются и как они влияют на успех проекта. В статье рассматриваются недостатки применения цифровых технологий в таких областях, как организация процессов малого бизнеса и аналитика данных, а также анализируются передовые практики. Представленная статья предлагает концептуальную основу, которая поможет выбрать подходящую ИТ-стратегию.

**Ключевые слова:** *Агентство развития малого и среднего бизнеса (KOBİA), ИТ-стратегия, аналитика бизнес-данных, информационное обеспечение малого бизнеса, цифровая трансформация.*